

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 148 (21.809)

*8 avqust 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Nehrəm kəndində Heydər Parkı istifadəyə verilib

Muxtar respublikanın ən böyük kənd yaşayış məntəqəsi olan Nehrəm kəndi aparılan quruculuq işlərindən sonra müasir görkəmə qovuşub. Son illər istifadəyə verilən sosial obyektlər, yaradılan müasir yol infrastrukturu, kənd təsərrüfatının inkişafı sahəsində görülən işlər, yeni iş yerlərinin açılması kənddə məskunlaşmanı artırıb, əhalinin rifahı xeyli yaxşılaşıb. Kənddə quruculuq işləri aparılarkən insanların istirahətinin mənalı təşkili də diqqət mərkəzində saxlanılır.

Avqustun 5-də Nehrəm kəndində Heydər Parkı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Nehrəm kəndində Heydər Parkının istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: Son illər Nehrəm kəndində geniş quruculuq işləri aparılmış, yeni məktəb binaları, musiqi məktəbi, rahat yol, xəstəxana tikilmiş, içməli su və kanalizasiya xətti çəkilmiş, rabitə və elektrik xətləri yenilənərək sakinlərin istifadəsinə verilmişdir. Bu gün açılışı olan Heydər Parkı da kənddə həyata keçirilən quruculuq tədbirlərinin davamıdır. Müasir sosial obyektlər və yaradılan infrastruktur imkan verir ki, Nehrəm kəndi daha da inkişaf etsin. Bütün bunlar isə insanlarda dövlətə inamı yaradır, onların rahat yaşayışına xidmət edir. Heydər Parkında istirahət edənlər də 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Nehrəm kənd sakinləri ilə görüşlərini xatırlayacaq, o çətin və tarixi günləri bir daha yada salacaqlar.








Ali Məclisin Sədri Heydər Parkının salınmasında təşəbbüs göstərən və əməyi olanlara təşəkkür edərək demişdir: Bu gün ölkəmizin hər bir yaşayış məntəqəsində kompleks quruculuq işləri görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu günlərdə Balakən, Zaqatala və Qax rayonlarına səfərləri zamanı istifadəyə verilən yeni obyektlər, keçirilən müşavirə və kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi tapşırıqlar Azərbaycanın inkişafının göstəricisidir. Bu inkişaf və tərəqqi Heydər Əliyev yoluna sədaqətin bəhrəsidir. Ölkəmizin inkişafının nəticəsidir ki, yaşayış məntəqələrində böyük təsərrüfatlar yaradılır, torpaqlar əkilir, insanların rifahı yaxşılaşdırılır. Nehrəm kəndindəki üzümçülük təsərrüfatı da ölkəmizdə və regionda bu sahədə yaradılan ən nümunəvi təsərrüfatlardandır. Vətənə xidmət etməyin bir yolu da ölkəmizin iqtisadiyyatına töhfə verən və insanların işlə təmin olunduğu bu cür nümunəvi təsərrüfatların yaradılmasıdır.

Ali Məclisin Sədri demişdir: Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan ən ağır dövrünü yaşayırdı. Həmin dövrdə ümummilli lider Heydər Əliyevə Bakıda yaşamağa imkan verilmədi. Lakin dahi şəxsiyyət Naxçıvana gələrək buradan Azərbaycanın xilasına başladı, xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdı, öz həyatını təhlükə qarşısında qoyaraq bugünkü müstəqil və qüdrətli Azərbaycanı yaratdı. Ölkəmizin həmin çətin dövrlərində Nehrəm kəndinin əhalisi ulu öndərə dəstək verdilər, dahi şəxsiyyətin deputatlığa namizədliyini irəli sürdülər. Nehrəm kəndinin sakinləri hər zaman dövlətçiliyə və vətənə bağlılıqları ilə nümunə göstəriblər. Bu gün kənddə aparılan quruculuq işləri də ölkəmizin inkişafının tərkib hissəsi olmaqla yanaşı, həm də dövlətin Nehrəm kəndinə göstərdiyi qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri ölkəmizin inkişafında yaxından iştirak etdiklərinə görə Nehrəm kənd sakinlərinə təşəkkür etmişdir.

Kənd ağsaqqalı Həsən Həsənov Nehrəm kənd əhalisi adından minnətdarlıq edərək demişdir: Aparılan quruculuq işləri nəticəsində kəndimiz son illər xeyli abadlaşmışdır. Ötən il Nehrəm kəndində məscid binası, kənd yolu istifadəyə verilib. Hazırda kənddəki imamzadə abidəsində bərpa işləri aparılır. Öz keçmişinə, dini dəyərlərinə və adət-ənənələrinə sadiq olan Nehrəm kənd əhalisi tərəfindən görülən bu işlər yüksək qiymətləndirilir. Nehrəm kənd sakinləri torpağa bağlı insanlardır. Torpaqların əkilməsi üçün kənddə lazımi şərait yaradılıb. Məhsulumuzu rahat satırıq. Bu gün istifadəyə verilən və dahi şəxsiyyətin adının əbədiləşdiyi parkın yerində vaxtilə ulu öndər Heydər Əliyev nehrəmlilərlə görüşmüşdür. Kənd əhalisi həmin tarixi qürur və iftixar hissi ilə xatırlayır. Dahi rəhbər Nehrəmə və nehrəmlilərə xüsusi münasibət göstərirdi. Bu ərazidə parkın salınması da Naxçıvanda ulu öndərin siyasi xəttinin davam etdirilməsinin nəticəsidir. Ulu öndərin o çətin dövrlərdə ölkəmiz və xalqımız üçün gördüyü işləri gələcək nəsillərə çatdıracağıq. Nehrəmlilər ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini daim dəstəkləyiblər və bundan sonra da dəstəkləyəcəklər.

Açılışı bildirən lent kəsildikdən sonra Ali Məclisin Sədri Heydər Parkının qarşısında kənd sakinləri ilə xatirə şəkli çəkdirmişdir.

Məlumat verilmişdir ki, parkın ümumi sahəsi 8515 kvadratmetrdir. Park üçün giriş qapısı tikilmiş, ərazi dekorativ metal çəpərlə hasarlanmış, müasir işıqlandırma sistemi qurulmuş, yaşıllıqlar salınmış və oturacaqlar qoyulmuşdur. Parkın mərkəzində dövlət bayrağı ucaldılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Babək rayonunda yeni üzümçülük təsərrüfatı yaradılıb





Naxçıvan Muxtar Respublikasının təbii-iqlim şəraiti üzümçülüyün inkişaf etdirilərək istehsalının artırılmasına, əhalinin müxtəlif çeşidli və yüksək keyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Hazırda iqtisadi səmərəlilik baxımından gəlirli sahələrdən olan üzümçülüyün inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Ölkəmizdə və muxtar respublikada qəbul edilən dövlət proqramlarına uyğun olaraq həyata keçirilən tədbirlər yeni üzümçülük təsərrüfatlarının yaradılmasına və üzümçülüklə məşğul olan sahibkarların

*Ardı 2-ci səhifədə*

sayının artmasına səbəb olmuşdur.

Avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək rayonunun Nehrəm kəndində yaradılan üzümçülük təsərrüfatına baxmışdır.

Məlumat verilmişdir ki, üzümçülük təsərrüfatının yaradılmasına 2015-ci ildə başlanmışdır. Ərazidə yerli sortlarla yanaşı, İtaliya, Fransa, Türkiyə və Özbəkistan mənşəli 10 məhsuldar üzüm sortu əkilmişdir. 150 hektar ərazidə ümumilikdə 326 mindən artıq üzüm tingi əkilmiş, ərazinin torpaq-iqlim şəraiti nəzərə alınmaqla lazımi aqrotexniki tədbirlər həyata keçirilmişdir. İstehsal prosesində innovativ texnologiyalar tətbiq olunur.

Becərmə və yığım işlərini aparmaq üçün xüsusi texnikalar alınmış, ərazidə inzibati və yardımçı binalar, nasos stansiyası tikilmiş, 50 kilometrdən artıq damcılı suvarma şəbəkəsi qurulmuşdur. Gələcəkdə ərazidə soyuducu anbarın inşa olunması da nəzərdə tutulmuşdur. Bütün bunlar isə daxili bazarın tələbatını ödəyən və yüksək ixrac potensialına malik keyfiyyətli məhsul istehsalına imkan verəcəkdir.

Təsərrüfatın ərazisində üzümlə yanaşı, digər meyvələrin əkininə də diqqət yetirilir. Hazırda 25 hektar sahədə 50 mindən artıq məhsuldar alma tingləri əkilmişdir. Nehrəm Üzümçülük Təsərrüfatında 140 kənd sakini işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri kənd təsərrüfatının inkişafında rentabelli işləyən təsərrüfatların yaradılmasının əhəmiyyətini vurğulamış, üzümçülük təsərrüfatının yaradılmasında əməyi olanlara təşəkkür etmiş, müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində bu ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.*

Kollegiya iclasında komitənin sədri Bəxtiyar İsmayılov məruzə edərək bildirib ki, 2017-ci ilin ilk altı ayı ərzində Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin qarşısında mühüm vəzifələr durur, beynəlxalq norma və prinsiplərə müvafiq olaraq standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və patent işi sahələrində beynəlxalq təcrübənin tətbiqi istiqamətində işlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının icrası xüsusilə diqqətdə saxlanılıb. Muxtar respublikaya idxal edilən 59 məhsulun üzərinə Azərbaycan dilində zəruri məlumatların vurulması təmin olunub.

Bəxtiyar İsmayılov deyib ki, "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011- ci il 15 iyul tarixli Fərmanının icrasını təmin etmək məqsədilə məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olan 227 müraciətin icrası reallaşdırılıb.

Vurğulanıb ki, bu ilin birinci yarısında standartların tələblərinə uyğun olmayan 2554 manat dəyərində yararlılıq müddəti bitən, keyfiyyətsiz və ya kontrafakt məhsulun, o cümlədən 201 manat dəyərində kontrafakt məhsulun, 2253,50 manat dəyərində çap qurğusu üçün mürəkkəbin və 99,50 manat dəyərində kosmetik vasitələrin satışına qadağa qoyulub. Komitənin əsas fəaliyyət istiqaməti qismində istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işi xüsusilə diqqətdə saxlanılıb, ümumilikdə, altı ay ərzində məhsulların keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilib.

Bildirilib ki, yerli istehsal məhsullarının keyfiyyətinə nəzarət məqsədilə 259 qida istehsalı müəssisəsində maarifləndirmə xarakterli baxış keçirilib, 32 təsərrüfat subyektində aşkar edilən çatışmazlıqların aradan qaldırılması təmin olunub. Təsərrüfat subyektlərindən götürülən məhsul nümunələrinin 564 halda laboratoriya analizləri aparılıb və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilib.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında aidiyyəti qurumlarla yanaşı, muxtar respublika Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi qarşısında da bir sıra vəzifələr qoyulub. Bu vəzifələr sırasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi də vardır. Sessiyada verilən tapşırıqların icrasını təmin etmək məqsədilə işçi qrupların fəaliyyəti daha da gücləndirilib, istehlak bazarında məhsulların keyfiyyətinə və müvafiq standartlara uyğunluğuna nəzarət istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov yekun vurub.

**✍ Səbuhi HÜSEYNOV**

*Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətində 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*



Tədbiri şirkətin baş direktoru Bəhruz Əsgərov açaraq bildirib ki, yol infrastrukturunun bərpası və yenidən qurulması bu ilin birinci yarısında da diqqət mərkəzində saxlanılıb. Son illər yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılıb, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilib. Tabelikdə olan yol istismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilib, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınmasında mühüm rol oynayan müasir mexanizmlərlə təmin olunub.

Qeyd olunub ki, hesabat dövründə şirkət və onun tabeliyində olan yol istismar idarələrinin kollektivləri tərəfindən Şərurda rayondaxili avtomobil yollarında çala təmiri işləri görülüb ki, bu da gələcəkdə həmin yolların müasir standartlara uyğun vəziyyətə gətirilməsinə şərait yaradacaq. Bundan əlavə, Babək rayonunda Xəlilli-Şıxmahmud-Xətai məhəlləsi avtomobil yolunda son tamamlama işləri həyata keçirilir. Payız kənd avtomobil yolunun yenidən qurulması, selötürücü kanalların və istinad divarlarının tikintisi, sahilbərkitmə işləri və yol üzərində yerləşən körpünün bərpası işləri aparılır.

Babək və Culfa rayonlarındakı daxili avtomobil yollarında çala təmiri, Dizə kənd avtomobil yolunda yol yatağının bərpası işlərinin görüldüyünü deyən baş direktor bildirib ki, cari ilin ilk 6 ayında Ordubad rayonunda da şəhər və rayondaxili avtomobil yollarının asfalt-beton örtüyü bərpa olunub, Ordubad şəhərdaxili, Sabirdizə kənd avtomobil yollarında istinad divarları tikilib.

Vurğulanıb ki, ərazisi dağlıq və dağətəyi zonadan ibarət olan Şahbuz rayonunda şəhərdaxili avtomobil yollarında da asfalt-beton işləri görülüb, su kanalları tikilib, respublika əhəmiyyətli Naxçıvan-Şahbuz magistral avtomobil yolunda asfalt-beton örtüyünün zədələnmiş hissələri bərpa olunub, rayon Energetika İdarəsinə gedən yolda təmir işləri aparılıb. Badamlı kəndində yaz aylarında baş vermiş torpaq sürüşməsinin nəticələri aradan qaldırılıb, bərkitmə işləri aparılıb, əhalinin həmin yollardan rahat istifadəsinə əlverişli şərait yaradılıb.

Kəngərli rayonunda isə rayonun daxili avtomobil yolunun yenidən qurulması, Qarabağlar kənd avtomobil yolunda abadlıq və selötürücü kanalların tikintisi işləri aparılıb. Sədərək rayonunda da avtomobil yollarında çala təmiri işləri görülüb, yeni yol nişanları quraşdırılıb.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov yekun vurub.

**✍ Səbuhi HƏSƏNOV**

*İstehsal müəssisələri*

## Süfrələrimizin bəzəyi – "SİRAB" mineral suyu

*Havaların isti keçdiyi bu günlərdə insan orqanizminin suya olan tələbatı daha da artır. Belə günlərdə susuzluğumuzu yatırmaq məqsədilə bol-bol maye qəbul edirik. Müşahidə aparsaq, görərik ki, daha çox istifadə olunan mineral sulardan biri də "Sirab"dır. Bu gün həmin mineral müalicəvi süfrə suyunun şöhrəti muxtar respublikamızdan çox-çox uzaqlara yayılıb.*






Süfrələrimizin bəzəyi olan "Sirab" suyu haqqında məlumat almaq, onun istehsalı ilə tanış olmaq üçün üz tutduq Babək rayonunun Sirab kəndində yerləşən Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinə. Cəmiyyətin icraçı direktoru Zülfü Hüseynov ilə söhbətimiz zamanı o bildirdi ki, "Sirab" mineral su yatağından sənaye məqsədilə XX əsrin 50-ci illərindən istifadəyə başlanıb. İlk dəfə olaraq yatağın su ehtiyatları hesablanıb və 1968-ci ildə Moskva Dövlət Ehtiyatları Komissiyasında təsdiq edilib. Aşkar olan mineral suların bazası əsasında 1968-ci ildə Azərbaycanda ən böyük mineral sudoldurma zavodu istifadəyə verilib. 2003-cü ildə "Sirab" Mineral Sular Zavodu Açıq Səhmdar Cəmiyyətinə çevrilib. Cəmiyyət bir sıra Avropa, Rusiya və Türkiyə firmaları ilə əlaqə yaradaraq müasir avadanlıqlar alıb.

Bu gün 100-dən artıq insanın çalışdığı "Sirab" Mineral Sular Zavodunda 7 texnoloji xətt quraşdırılmış 4 sex fəaliyyət göstərir. Bu xətlərdə qazlı və qazsız "Sirab" təbii mineral müalicəvi süfrə suyu müxtəlif həcmli plastik və şüşə butulkalara doldurulur. Hazırda zavodda 21 çeşiddə məhsul istehsal olunur. Qablaşdırmada istifadə edilən xammal isə Türkiyə və Gürcüstandan, eləcə də muxtar respublikada fəaliyyət göstərən "Gəmiqaya Holdinq"dən alınır.

"Sirab" mineral su yatağı Babək rayonunun Sirab kəndi ərazisində, Naxçıvan şəhərindən 14,6 kilometr şimal-şərqdə dağ ətəyində yerləşir. Qədim zamanlardan indiyədək "Sirab"dan həm də müalicə məqsədləri üçün istifadə edilib. Məhz insanlara şəfa verdiyi üçün bu su "Sirab" adlandırılıb, mənası "sirli su" deməkdir. Belə ki, karbon qazlı "Sirab" mineral suyu güclü ödqovucu təsirə malikdir. "Sirab"dan mütəmadi olaraq istifadə etməklə mədədəki qastrit xəstəliyinin qarşısını almaq olar. Bundan əlavə, maddələr mübadiləsinin pozulması, qaraciyər, mədə-bağırsaq, tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən, allergik rinit xəstəliyinə tutulmuş insanlara "Sirab" içmək məsləhət görülür. Yəni bu mineral su min bir dərdin dərmanıdır.

Bu gün "Sirab"ın istehsalında ən müasir texnologiyalardan istifadə olunur. Su 114 millimetrlik paslanmayan boru ilə mənbədən zavoda gətirilir. İlkin mərhələdə suda olan iri hissəcikləri ayırmaq üçün o, mexaniki filtrdən keçirilərək 50 tonluq çənlərə doldurulur. Sonra 25 mikron qum filtrindən süzülərək emallı ehtiyat su çənlərinə ötürülür. Bu proses istehsala verilən mineral suyun davamlılığını təmin etmək və onun bir neçə saat ərzində olsa da, dincə qoyulması üçündür. Əsasən, istehsal prosesi ehtiyat su anbarından mineral suyun soyuducu qurğulara ötürülməsi ilə başlayır. Burada su 4-8 dərəcədə soyudulur, sonra istehsal sexlərinə verilir. Bu sexlərdə mineral su qablaşdırılmadan öncə bir neçə vacib mərhələdən keçir. Belə ki, ilkin olaraq 1 mikron filtrlərdən süzülür. Doldurulmadan öncə mineral su karbon dioksidlə qazlaşdırılır. Məhz mineral su karbon dioksid qazını rahat və lazımi miqdarda qəbul etsin deyə 4-6 dərəcəyədək soyudulur. Bu prosesdə məqsəd qablaşdırılan məhsulun saxlama müddətinin artırılması və mineral duzların çökmə ehtimalının qarşısını almaqdır. Bütün bu proseslərdən sonra mineral su lazımi çeşidlərdə qablaşdırılaraq paketlənib satış bazarlarına çıxarılır.

Zülfü Hüseynov məhsulun ixrac edildiyi ölkələr haqqında da danışaraq dedi:

– Bu gün süfrələrimizin bəzəyi olan "Sirab" mineral suyunun sorağı dünyanın bir çox ölkələrindən gəlir. Belə ki, minerallarla zəngin olan "Sirab" Azərbaycanın müxtəlif bölgələri ilə yanaşı, Rusiya, İraq, Türkiyə, Çin və Baltikyanı ölkələrdə çoxsaylı alıcı kütləsi qazanıb. Bundan əlavə, Körfəz ölkələrində də "Sirab"la əlaqədar qeydiyyat işləri artıq başa çatıb və yaxın zamanda həmin ölkələrə də ixracatı nəzərdə tutulur. Qazandığımız uğurlara əsaslanaraq əminliklə deyə bilərik ki, "Sirab" mineral suyu gələcəkdə Avropa bazarında da layiqli yerini tutacaqdır.

Öyrəndik ki, Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətində istehsal prosesi İSO standartlarında keyfiyyətli idarəetmə sisteminin tələblərinə uyğun şəkildə idarə edildiyi üçün müəssisə Almaniyanın "İQNET" və "DQS" sertifikatlaşdırma təşkilatı tərəfindən İSO 9001-2015 və İSO 22000-2005 standartlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Bu da "Sirab" suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi olmaqla yanaşı, həm də onun Avropa bazarına girişini təmin edir.

Dünya standartlarına cavab verən "Sirab" mineral suyu bir çox xarici ölkələrdə yüksək nailiyyətlər qazanıb. 2005-ci ildə Cenevrədə "Biznesdə yüksək keyfiyyətə görə" sərgisində, 2009-cu ildə Ukraynada keçirilən "Qida məhsulları və içkilərin XII forumu"nda qızıl, 2010-cu ildə Moskvada keçirilən XVII Beynəlxalq "PRODEXPO 2010" sərgisində gümüş, 2011-ci ildə Moskvada keçirilən XVIII Beynəlxalq "PRODEXPO 2011"sərgisində və 2011-ci ildə Qazaxıstanda keçirilən Beynəlxalq Yeyinti Sənaye sərgisində qızıl medallar qazanıb. Bununla yanaşı, 2009, 2012-ci illərdə "Azərbaycanda İlin Brendi" Birinci Milli Mükafatına layiq görülüb. 2012-ci ildə "Biznesdə uğur", 2015-ci ildə Brussels İTQİ–Beynəlxalq Ləzzət və Keyfiyyət İnstitutu tərəfindən "Mükəmməl ləzzət" mükafatlarını alıb.

*Bu əvəzsiz təbii sərvət həm də muxtar respublikamızın tanıtımında əsaslı rol oynayır. Çünki "Sirab" bütün müalicəvi keyfiyyətləri ilə qədim Naxçıvan torpağını dünyada tanıtma dəyərinə malikdir. Yerli istehsalımız olan brendlərimizin yaranması isə həm də iqtisadi inkişafımızın göstəricisidir.*

**✍ Fatma BABAYEVA**



# Əsrlərə şahidlik edən qədim yurd yeri

## Azərbaycanın məşhur kəndlərinin birindən reportaj (I yazı)

...Bu evi kəndin o zaman ən varlı adamlarından olan Hacı Məhəmməd tikdirib. Onun Arazın üstündəki körpünün yanında dükanı vardı. İrandan mal gətirib satardı. O dövrdə bu cür 6-7 otaqlı, ikimərtəbəli belə mülk tikdirmək hər kəsin işi deyildi. Bu binanın qarşı tərəfində də 4-5 otaqlı bir ev tikdirmişdi. Ancaq sonradan həmin evin otaqlarını sökdülər. 20 sota yaxın ərazisi var bu həyətin. Görürsünüz də, binanın fasadındakı "prikaz" mətni, rusca hərbi şüarlar sovet əsgərlərindən qalma yadigarlardır. Evin birinci giriş qapısı üzərindəki daş kitabədə oyularaq həkk olunmuş beşguşəli ulduz, "1909" və ərəb qrafikası ilə əski əlifbaya uyğun hərflərlə sözlər yazılıb. Tərcüməsini bilmirəm, indiyə qədər bura baxanlar çox olub. Ancaq onu bilirəm ki, bu ikimərtəbəli ev 1901-ci ildə tikilib. İkinci mərtəbəyə qalxan pilləkənlər də böyük sal daşlardan yonularaq düzəldilib. Ağsaqqallarımız belə rəvayət edirlər ki, burada o dövrdə dəmir yolunun tikintisində çalışan yunanlar işləyiblər. Hacı Məhəmməd onlara yaxşı pul verirmiş, yerli adamlardan da işləyənlər varmış. Allah sovetlərin evini yıxsın, heç qoymadılar Hacı bu evdə rahat yaşasın. Sovet hakimiyyəti qurulandan sonra bu binanı rus hərbçilərinin yerləşdirildiyi komendaturaya çevirdilər (bəzi məlumatlara görə isə II Dünya müharibəsi dövründə sovet qoşunlarının İrana dislokasiya olunmuş hissələri müvəqqəti burada yerləşdirilib). Hacını isə evini tərk etməyə məcbur etdilər. Müharibədən sonrakı dövrlərdə bu ikimərtəbəli ev gah dövlət idarəsi, gah da uşaq bağçası kimi istifadə olundu. Nəhayət, 1975-ci ildə Hacı Məhəmmədin oğlu bu ata mülkünü bizə satdı. Biz isə burada 2004-cü ilə qədər yaşadıq. İndi isə gördüyünüz kimi heç kim yaşamır...

Bu söhbəti bizə 62 yaşlı kənd sakini Cəbi Həsənov danışır. Ümumiyyətlə isə kənddə bu cür tarixi tikililər bir çox yerdə var. Onların bəziləri sökülüb-dağılsa da, yaşayış yeri kimi istifadə olunanları da var. Ancaq bu mövzuya bir azdan qayıdacağıq...

İndi isə orta əsrlər Naxçıvanında karvan yolları üzərində yerləşən, Çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Araz çayı kənarında çoxsaylı ticarət obyektlərinə malik olan, hazırda da keçid məntəqəsi kimi istifadə olunan məşhur Azərbaycan kəndi – Şahtaxtıdan bəhs edəcəyik. O kənd ki təkcə tarixi ilə deyil, həm də yerləşdiyi coğrafi mövqeyə, yetirdiyi yüzə yaxın elm adamına görə digərlərindən fərqlənir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Şahtaxtı dünyada məşhur Azərbaycan kəndlərindən biri kimi tanınır. Bu kənd ona görə tanınır ki, böyük şəxsiyyətlər yetişdirib. Həmin şəxsiyyətlərin Azərbaycan dövlətçiliyinin qorunmasındakı xidmətləri, muxtar respublikamızın ictimai-siyasi həyatında yaxından iştirakı, ölkəmizdən kənarda siyasi fəaliyyətləri Şahtaxtını məşhurlaşdırıb".***

Beləliklə, budəfəki yazımızda daha çox Şahtaxtının dününənə nəzər salacağıq...

Naxçıvanımızın elə bir bölgəsi, elə bir yaşayış məntəqəsi yoxdur ki, qədim tariximizin müəyyən bir parçasını özündə yaşatmasın. Ancaq elə yaşayış məntəqələrimiz də var ki, bu ərazilər nə qədər öyrənilsə də, öz sirrini saxlayaraq yeni tədqiqatların aparılmasını zəruri edir. Tarix faktlara söykənəndə maraqla oxunur. Lakin tarix rəvayətləri, xalq dilini də sevir. Çünki rəvayətlər də heçdən yaranmır, həm də xalqın dilindən səslənir. Elə biz də Şahtaxtıda bu dəfə gördüklərimizi xalq dilində çatdırmağa çalışacağıq...

Sovetlər Birliyi dövründə ozamankı Şərur, indi isə Kəngərli rayonunun kəndlərindən 18 yaşı tamam olan kənd cavanlarının hamısının yolu bu kənddən düşərdi. Hətta indiki Şərur rayonunun yaxın kəndlərindən də bura gələnlər az deyildi. Yox, o zamanlar sərhədlər bağlı idi, heç bir xarici dövlətə keçmək mümkün deyildi. Ancaq hərbi xidmətə yolu düşən gənclərin yaxınları üçün yolasalma mərasiminin sonu Şahtaxtıdakı dəmiryol vağzalının həyətində sona çatardı. Buna görə də çağırış dövründə vağzalın yan-yörəsi adam əlindən dolub-daşardı. Çoxlarımız üçün dövlət sərhədi ilə, Araz çayı ilə yaxından tanışlıq da buradan başlanardı. Bir sözlə, o zamanlar yük maşınlarının kuzovuna doluşaraq buradakı dəmiryol vağzalına yolu düşən gənclərin bir çoxu kimi mənim də Şahtaxtı kəndi ilə tanışlığım belə başlamışdı.

Mərhum alim, filologiya elmləri doktoru Adil Bağırov "Naxçıvan oykonimləri" kitabında "Şahtaxtı" sözünün xalq etimologiyasına görə, "şahın taxtı", "şahın oturduğu yer" mənasında olduğunu göstərməklə, "şah" sözünün (hündür, yüksək, ən birinci) "taxt" sözü (dağ döşündə düzənlik) ilə birləşərək "hündür yerdə olan taxt, düzənlik" mənasını verdiyini qeyd edir. Kəndin adına müxtəlif tarixi mənbələrdə rast gəlinsə də, bu sahədə dəqiq araşdırmalar hələ də yolunu gözləyir. Çünki hələ də tədqiqatçılar arasında dağlıq ərazidə yerləşməyən kənddə taxtın hansı şahla bağlı olması haqqında fərqli fikirlər mövcuddur. Ancaq bütün bunlara baxmayaraq, Şahtaxtı kəndi bir çox maraqlı tərəfləri ilə seçilir. Birinci ona görə ki, kənd çox qədim tarixə malikdir və burada aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri bunu bir daha sübut edir. Alimlərin gəldiyi qənaət budur ki, Şahtaxtı həl追 bizim eradan əvvəl VI-IV minilliklərdən başlayaraq intensiv istifadə olunan, eradan əvvəl II minillikdən isə ətrafı qala divarlarıyla möhkəmləndirilmiş yaşayış məskəni olub. İkinci tərəfdən, Şahtaxtı kəndi coğrafi mövqeyinə görə indi olduğu kimi, keçmişdə də mühüm əhəmiyyət daşıyıb. Kənd orta əsrlərdə şimal-cənub və şərq-qərb istiqamətində ən çox istifadə olunan karvan yolunun üzərində yerləşib. Bu qədim yaşayış məntəqəsi elə bir coğrafi nöqtədə qərarlaşıb ki, cənubdan Araz çayını keçib şimal istiqamətində hərəkət edən karvan Şərqdən Qərbə uzanan Böyük İpək Yoluna çıxmaq üçün mütləq şəkildə buradan keçməli idi. Məsələnin digər maraqlı tərəfi isə ondan ibarətdir ki, Şahtaxtı kəndi tarixin bütün dövrlərində tanınmış şəxsiyyətlər yetişdirib. Xüsusiləşdirməyə çalışmasaq da, Kəngərlilər dövrünün tayfa başçılarından, sərkərdələrindən tutmuş, ölkəmizin son 200 ildə ictimai, siyasi, mədəni həyatında mühüm rol oynamış bir çox tanınmış şəxsiyyətləri məhz bu kəndin yetirmələri olub...

...Kəndin tarixi tikililərindən danışırdıq axı. Girişdə bəhs etdiyimiz Hacı Məhəmmədin evi haqqında kənd sakini, 1925-ci il təvəllüdlü Məşdi Hüseynov da maraqlı məlumatları bizimlə bölüşür. Yaşına görə çox qıvraq görünən bu ağsaqqal həmsöhbətimiz deyir ki, kənddə Hacı Məhəmmədin, Kərbəlayı Salmanın və digərlərinin tikdirdiyi evləri ağlı kəsəndən belə görüb. Məlumat verir ki, Hacı Məhəmmədin evi repressiya dövründə dövlət idarəsi kimi istifadə olunub. 1938-ci ildə kənddə atası Hüseynov Cavad Kərbəlayı Əhməd oğlunu, Qazıbəyov Əbül Məşədi Əli oğlunu, Seyidov Mirqasım Mirəziz oğlunu və Mahmudov Məşədiqasım Kərbəlayı Məhəmməd oğlunu həmin binada mühakimə ediblər. Atasını 1938-ci il martın 29-dan 30-na keçən gecə güllələyiblər, digərlərini də həmin mart ayında güllələmə ilə cəzalandırıblar... Sonra bizə bir qəzet gətirir. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin "Sərhəd" qəzetinin 1 nömrəli xüsusi buraxılışında "Yaddaşın bərpası" adlı siyahıda yuxarıda adıçəkilən şəxslərin ölüm hökmü haqqında əmrlərini, mühakimə olunduğu tarixləri bizə göstərir. Nəşr tarixi heç bir səhifədə göstərilməsə də, kiril əlifbası ilə dərc olunmuş qəzetin müstəqilliyimizin bərpasından sonrakı dövrə təsadüf etdiyini öyrənirik. Məşdi Hüseynov atasının bəraəti ilə bağlı 1962-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinə yazılı müraciətindən sonra ona göndərilən bəraət sənədini də qəzetlə birlikdə saxlayır. Deyir ki, Şahtaxtıdan o zaman sürgünə göndərilən, repressiyaya məruz qalan, sovet hakimiyyəti qurulan zaman sərhədi adlayaraq o taya keçən xeyli kənd sakini olub.

Kənddə Hacı Məhəmmədin evindən bir az aralıda zahiri görünüşü ilə ilk baxışdan diqqəti cəlb edən daha bir tarixi bina yerləşir. Bu bina digəri kimi ikimərtəbəli olsa da, otaqlarının sayı azdır. Hazırda burada yaşayış da mövcuddur. İbrahim İbrahimov uzun illər kənddə müəllim işləyib, indi isə təqaüddədir. Ailəsi ilə bu evdə yaşayır. Deyir ki, bu evi babası Kərbəlayı Salman tikdirib. Hər mərtəbəsində 3 otağı olan evin divarlarının eni birinci mərtəbədə 1 metr, ikinci mərtəbədə isə 80 santimetrə çatır. Müsahibimiz bizi evə baxmağa dəvət edir. İbrahim müəllim məlumat verir ki, babasının dediyinə görə, evi 1867-ci ildə tikdirib. Evin tikintisində digər tikililərdə olduğu kimi, Şahtaxtının yonulmuş yerli daşlarından istifadə olunub. O dövrə məxsus evlərdə olduğu kimi, buradakı otaqların divarlarında da müxtəlif əşyaların saxlanılması üçün taxçalar yerləşir. Evin tavanında istifadə olunan ağac dirəklər isə bir-birinə 20-30 santimetr yaxınlıqda, otağın mərkəzi hissələrində isə yanaşı olaraq qoyulub. Maraqlı odur ki, 150 yaşlı evin dam örtüyündə indiyədək qoruyucu şifer materialından istifadə olunmayıb, ancaq heç bir yağıntı da bu günədək otaqlara təsir etməyib. Ev sahibi bunu dam örtüyünün yerli möhrə palçığı ilə suvanması ilə izah edir. Yerli ustaların zəhməti sayəsində ərsəyə gəlmiş evin fasadında, ən yuxarı hissədə isə daş kitabədə saat cizgilərini xatırladan oyma xətlər və əski əlifba ilə yazılmış yazılar diqqəti cəlb edir. Bu haqda tam məlumat ala bilməsək də, deyilənlərə görə, kitabədə gün saatı və evi tikən ustanın və ya ev sahibinin adı həkk olunub.

Şahtaxtı qeyd etdiyimiz kimi, bir çox tarixi şəxsiyyətlərin doğulub boya-başa çatdığı kənddir. Burada indiyədək 76 nəslin nümayəndəsi qeydə alınıb ki, onlardan 69-nun davamçıları hazırda da kənddə yaşayırlar. Bu məlumatı isə kənd ziyalısı, hazırda təqaüddə olan coğrafiya müəllimi Seyid Zamin Mirnəzir oğlundan alırıq. Yaşadığı kəndin tarixinə məxsusi sevgisi ilə seçilən ağsaqqal ziyalımız artıq bir neçə ildir, bu sahədə araşdırmalar aparıb, uzun müddət Azərbaycanın dövlət arxivlərində 1831, 1842, 1852 və 1873-cü illərin kameral siyahılarını tədqiq edərək yuxarıda qeyd etdiyimiz faktları əldə edib. Sonra həmin illərdən Şahtaxtıda yaşayan nəsillərin şəcərəsini müasir dövrədək qruplaşdıraraq bu haqda yeni kitab nəşrə hazırlayır. İndiyədək 6 akademikin, yüzə yaxın elmlər doktoru və elmlər namizədinin yetirdiyi kəndin coğrafiyası haqqında da bizi məlumatlandıran müsahibimiz deyir ki, Şahtaxtı kəndi bir çox maraqlı tərəfləri ilə diqqət çəkir. Məsələn, bu kənddə vaxtilə xeyli sayda göl olub. Yəni bu göllər bizim elmi şəkildə qəbul etdiyimiz ərazicə böyük göllər deyil, kəndin müxtəlif əkin sahələrinin suvarılmasında istifadə olunan kiçik sututarlardır. Böyük göl, Baş göl, Sadıx gölü, Molla Abdulla gölü, Əhməd gölü, Şivli göl, Məmmədcəfər gölü, Şəril gölü, Qoşa göl, Lələ göl və adını sadalamadığımız 45 belə göl Şahtaxtı kəndində həyatyanı sahələrin, eləcə də kənddən aralıdakı əkin sahələrinin suvarılmasında mühüm rol oynayıb. Təəssüf ki, indiyədək bu göllərin sayı azalıb, amma onların adları kənd sakinlərinin yaddaşında indi də yaşayır.

Kənddə məhəllə adları da xalqın dilində işlək termin kimi qorunur. Seyidlər, Hamam, Cırbıtlı, Qala, Nəcəfabad, Əliş məhəllələri ilə yanaşı, Rus diki, Yuxarı Meydan, Aşağı Meydan kimi ərazilər də sakinlər tərəfindən gündəlik işlənilən terminlərdəndir. Bu yer adları içərisində daha çox diqqətimizi çəkən Rus diki olur. Nə üçün belə adlandırıldığını soruşuruq. Seyid Zamin bildirir ki, Şahtaxtı kəndi Çar Rusiyası dövründən diqqət mərkəzində olub. Ötən əsrin əvvəllərindən burada ilk dəmir yolu salınıb, sonralar İranla əlaqələr üçün gömrük postu yaradılıb. Gömrükdən keçidə, təbii ki, rus əsgərləri nəzarət edib. O zamanlar rus zabitləri (xüsusilə nəzarətçi zabitlər) indi kənddə İmam Zeynalabdin məscidinin yerləşdiyi yerin yaxınlığındakı dik təpədən həmin Arazboyu sərhəd ərazilərinə davamlı olaraq nəzarət edirmişlər. Elə ərazinin adı da o vaxtdan kənd əhalisinin dilində Rus diki kimi qalıb.

*Şahtaxtı kəndində maraqlı tarixi ərazilər və onlarla bağlı deyimlər, rəvayətlər çoxdur. Kənddə digər müsahiblərimizlə də söhbətimiz maraqlı alınır. Onlarla məşhur Şahtaxtı yemişindən tutmuş kənddə tikilmiş ilk zemstvo məktəbinədək, görkəmli Şahtaxtinskilər nəslinin nümayəndələrindən tutmuş XVII əsr hamamınadək və nəhayət, iqtisadi və mədəni əlaqələrin kəsişmə nöqtəsində yerləşən Şahtaxtının müasir gününədək xeyli mövzularda söhbətimiz oldu. Bu haqda isə növbəti yazımızda...*

**Səbuhi HƏSƏNOV**

Muxtar respublikamızın səhiyyə sistemində həyata keçirilən islahatların mühüm bir istiqaməti də əhaliyə göstərilən tibbi xidmətin əhatəsini genişləndirmək, bölgələrdə cərrahiyyə əməliyyatlarını təşkil etmək, müayinə və müalicə işlərini daha da yaxşılaşdırmaqdan ibarətdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərdə yaxından iştirak edən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılmış imkan-



# Babək Rayon Mərkəzi Xəstəxanasında bir gündə 22 cərrahi əməliyyat aparılıb

lardan səmərəli istifadə edir, əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla aparırlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim və tibb işçiləri ötən şənbə günü müasirtipli səhiyyə müəssisələrindən olan Babək Rayon Mərkəzi Xəstəxanasında 30 müayinə, 22 cərrahiyyə əməliyyatı aparıb, əhaliyə təmənnasız tibbi xidmət göstəriblər. Həmin gün xəstəxanada 16 nəfər ultrasəs və elektrokardioqrafiya müayinəsi olunub, onlardan qan analizləri götürülüb, müvafiq tibbi məsləhətlər verilib.

Cərrahi əməliyyatlar həkim-cərrahlardan Abasət Hüseynəliyev, İsa Abdullayev, Zeynəb Məmmədova, İlham İsmayılov, anestezioloq-reanimatoloqlardan Ənvər Şıxəliyev, Zaur Həsənov və əməliyyat tibb bacıları tərəfindən icra olunub. Onlar 30 xəstəni müayinə ediblər. Cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr üzərində uroloji, proktoloji, qiqant yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Xəstəxanada ilk dəfə olaraq spinal anesteziya ilə yırtıq əməliyyatı icra edilib. Əməliyyatlar uğurla başa çatdırılıb, xəstələr birgünlük müşahidədən sonra evlərinə buraxılıb.

Babək rayonunun Hacıvar kənd sakini, 68 yaşlı əmək veteranı Nizami Məmmədov başqa yerlərə getmədən ərazidə yerləşən səhiyyə müəssisəsində pulsuz əməliyyat olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə göstərilən xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib. Digər xəstələr də tibbi xidmətdən razı qaldıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

**Naxçıvan teatr sənətinin inkişafına böyük töhfələr verən, yaratdığı maraqlı, dolğun rolları ilə tamaşaçı sevgisi qazanan aktyorlardan biri də Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbovdur. O, hələ kiçik yaşlarından teatra maraq göstərib. Səhnə onun üçün əlçatmaz zirvə, sirlərlə dolu bir məkan idi. Zaman keçdikcə özü də bu məkanın sakini oldu.**

## Klassik aktyor məktəbinin istedadlı nümayəndəsi



İlk vaxtlar sənətdə kövrək addımlarını atan gənc üçün korifey bir sənətkarın bu ibrətamiz sözləri öz faydasını verir. O, gecəsini gündüzünə qatıb yeni aktyor mizanları tapmağa çalışır. Şirzad Abutalıbov müxtəlif illərdə Nəriman Həsənzadənin "Pompeyin Qafqaza yürüşü"ndə Sentriyon, Məmməd Səid Ordubadinin "50 yaşında cavan" əsərində Qulu, İsi Məlikzadənin "Gəl, qohum olaq" əsərində Ədalət, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində Şeyx Nəim, "Şeyda" əsərində Yusif, Adil Babayevin "Yarımçıq şəkil"ində Ziyad bəy və sair obrazları inandırıcı şəkildə sənətsevərlərə çatdıra bilib.

Şirzad Abutalıbovun teatra, aktyorluğa marağını görən Azərbaycanın Xalq artisti Tofiq Mövləvi onu həvəskarlardan ibarət dram dərnəyinə üzv yazdırır. Dram dərnəyində ilk dəfə Cəfər Cabbarlının "Solğun çiçəklər" və "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" əsəri əsasında hazırlanmış tamaşalarda fərqli obrazlar yaradır. Sonra o, təhsilini Azərbaycan Dövlət İncəsənət İnstitutunda davam etdirir. Təhsilini başa vurub yenidən doğma teatra qayıdır.

58 yaşlı aktyor ömrünün 43 ilini səhnə fəaliyyətinə həsr edib, yerli və dünya dramaturqlarının əsərlərində yaddaqalan obrazlar yaradıb. Sənət aləmində özünü təsdiqləyən aktyor pedaqoji fəaliyyətlə də məşğuldur. O, teatrda çalışmaqla bərabər, Naxçıvan Musiqi Kollecində səhnə danışığı fənnindən də dərs deyir.

Naxçıvanın tanınmış səhnə ustaları Baxşı Qələndərli, Sofya Hüseynova, Firuzə Əlixanova, Roza Cəfərxanova və başqaları onun aktyor kimi püxtələşməsində əvəzsiz rol oynayıblar. Şirzad Abutalıbov peşəkar teatr bilicisi Baxşı Qələndərlidən kifayət qədər sənət stimulu alıb. Zəngin dünyagörüşünə malik aktyorun dərin həyat müşahidəsi Şirzad Abutalıbova da sirayət edib. Aktyor yaradıcılığı haqqında söhbət düşəndə Baxşı Qələndərli deyirdi: "Yaxşı aktyor ola bilərsən, təkəbbürlü olmasan".

Şirzad Abutalıbovun yaradıcılığı çoxşaxəlidir. O, dramatik, komik və epizodik rolları səhnədə məharətlə yaratmağı bacarır. Yaradıcılıqdan söhbət düşəndə isə müdriklərdən birinin sözlərini xatırladır: "Ən uzun həyat zəngin yaşanmış həyatdır. Ömrü vaxt ilə deyil, əməllərdə ölçmək lazımdır".

Sənətkar 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2008-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb. Şirzad Abutalıbov 2017-ci ilin yanvar ayından Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında bədii rəhbər-direktor vəzifəsində çalışır. Burada yazıçı-dramaturq Kəmalə Ağayevanın "Göyçək Fatma" tamaşasını uğurla səhnəyə qoyub.

İnanırıq ki, Şirzad Abutalıbov bundan sonra da yeni obrazlarla öz tamaşaçılarını sevindirəcək.

**Adilə SƏFƏROVA**
***Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi***

### Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin iyul ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 336062 | 40812 | 40953 | 100,3 |
| 2. | Ordubad rayonu | 402780 | 47515 | 47654 | 100,3 |
| 3. | Şahbuz rayonu | 239195 | 28622 | 28691 | 100,2 |
| 4. | Kəngərli rayonu | 288807 | 34615 | 34672 | 100,2 |
| 5. | Babək rayonu | 729343 | 92546 | 92649 | 100,1 |
| 6. | Şərur rayonu | 696540 | 81789 | 81857 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 845553 | 101722 | 101778 | 100,1 |
| 8. | Sədərək rayonu | 80353 | 9183 | 9185 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3170465 | 633867 | 848170 | 133,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **6789098** | **1070671** | **1285609** | **120,1** |

### Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ildə taxıl biçininin yekununa dair məlumat

| S/№ | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 4 144 | 4 144 | 13 171 | 31,8 |
| 2. | Babək rayonu | 10 420 | 10 420 | 32 820 | 31,5 |
| 3. | Ordubad rayonu | 1 671 | 1 671 | 4 706 | 28,2 |
| 4. | Culfa rayonu | 6 048 | 6048 | 15 873 | 26,2 |
| 5. | Kəngərli rayonu | 4 364 | 4 364 | 12 134 | 27,8 |
| 6. | Şahbuz rayonu | 1 591 | 1 591 | 4 252 | 26,7 |
| 7. | Sədərək rayonu | 2 440 | 2 440 | 7 859 | 32,2 |
| 8. | Naxçıvan şəhəri | 954 | 954 | 2 604 | 27,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31 632** | **31 632** | **93 419** | **29,5** |

*Xalq yaradıcılığı*

## "Gülümey" xalq oyunu

***El-el gəzib, dildən-dilə düşüb, könüllərə su səpib, ruhu qanadlandırıb, elimizdə, ulusumuzda yaranan mahnı-oyunlar. Qanad açıb, işıq saçıb, yer üzünə səs-soraq salan bu mahnıların hər birinin öz rəngi, öz ahəngi var. Hər kəlməsi ürəklər fəth edən, könüllər oxşayan həmin mahnı-oyunlar dildə-dodaqda gəzib, sazda-sözdə ötüb, nəğmə olub dilləri bəzəyib:***



*Arazda seçim gördüm,*
*Çəkdikcə üzüm gördüm.*
*Elə nəğmə oxudum,*
*Sözlərin gücün gördüm.*

Mahnı-oyunlarımız el sorağı, məclislər yaraşığıdır. Hicrandır, vüsaldır, qəmə qəmxardır, sevincə yardır. Gülümeylər isə bu mahnı-oyunların yaraşığıdır.

*Əzizinəm sırası,*
*Ürəyimin parası*
*Baxanı heyran qoyar*
*Bizim gülümey havası.*

Söz ki gülümeylərdən düşdü, elə Kəngərli obasına məxsus olan "Gülümey" mahnı-oyunundan bəhs edək. Buna "dilyallısı" da deyirlər. "Gülümey"in, adətən, 12 nəfər qızdan ibarət üzvü olur. Əvvəl həzin nağara ritminin sədaları altında əsas hissəni ifa edən qız milli geyimdə ortaya çıxır və: "Ay qızlar, ay qızlar, gülümeyə gəlin, gülümeyə", – deyə qızları gülümeyə çağırır.

Sağdan və soldan iki dəstəyə bölünmüş qızlar barmaq-barmağa tutaraq meydana çıxar və gülümey gedərlər. Qızları gülümeyə səsləyən başçı ortada dayanıb oxuyar, dəstələr gülümey gedə-gedə nəqarat hissəni təkrar edərlər:

*Ay gülümey, ey gülümey,*
*Kəngərliyə gələn qız,*
*Ay gülümey, ey gülümey,*
*Böyük, kiçik bilməli.*

*Ay gülümey, ey gülümey,*
*Kəngərlidən gedən qız,*
*Ay gülümey, ey gülümey,*
*Göz yaşını tökməli.*

Qeyd edək ki, gülümeylər, əsasən, xınayaxma məclislərində, toy və el şənliklərində gedilər. Gülümey gedə-gedə sözlər arasına haxıştalar da əlavə edərlər. Onu da qeyd edək ki, gülümeylər bir variantda deyil, bir neçə variantda gedilər. Gülümeylərdə bayatılar daha böyük təkamül yolu keçib. Bayatı öz məcrasından çıxır, bəzən də musiqiyə görə bölgülərin sayı artır, tamamilə yeni bir forma alınır:

*Ağababam ağ olaydı,*
*Ay gülümey, ay gülümey.*
*Dörd yanı bağ olaydı,*
*Ay gülümey, ay gülümey.*
*Kaş mən sevən oğlanın,*
*Ay gülümey, ay gülümey.*
*Anası sağ olaydı,*
*Ay gülümey, ay gülümey.*

Naxçıvan üçün səciyyəvi olan "Gülümey" oyunu başqa oyunlardan bayatıların oxunması baxımından seçilir. Gülümeylərin yaranma tarixinə getsək, ən əvvəl onu qeyd etməliyik ki, qədim insanlar bu oyunları icra etməklə, avazla bu nəğməni oxumaqla təbiətə təsir göstərmək, torpağın bərəkətliliyini artırmaq istəyiblər.

Qədim el mahnı-oyunu olan gülümey gedən dəstənin geyimləri fərqlənər, əsasən, xına, toy məclislərinə uyğun geyimlər olarmış. Kəngərli bölgəsinə aid olan el şənliklərində, xınayaxma mərasimlərində ifa olunan gülümey oxunuş və oynamaq qaydasına görə də fərqlənir. Hər bəndi dörd misralı olan və bütün misralarının sonunda "gülümey" sözü təkrarlanan mahnı-oyunda qızlar nəqarəti əl hərəkətləri vasitəsilə təkrarlayaraq çatdırırlar.

Naxçıvan özünün rəngarəng folklor nümunələri ilə həmişə fərqlənib. Bu qədim diyarda rast gələnən nümunələr məhz regionumuz üçün xarakterikdir:

*Qızılgülü dərərlər,*
*Gülə qulluq edərlər,*
*Bir qardaş toyunda*
*Bu güldən çələng hörərlər.*

Söz yüklü folklorumuz bizə çox şeydən söz açır. Onun yaddaşında yaşayan və onu yaşadan həqiqət tarixindən danışır. Hər qaya parçasında, hər dağında, daşında bir mahnıya dönmüş həqiqətdən danışılır. Bəzən son dərəcə adi görünən bir xalq deyimində o qədər böyük həqiqətləri çatdırılır ki, onları dinlədikcə könlünə nə qədər məlhəm olduğunu hiss edirsən. Bəli, ilkinlikdən – mifik başlanğıcdan adi məişət görüntülərinəcən nə varsa, poetik dünyanın predmetinə çevrilib, illərdən-illərə, nəsillərdən-nəsillərə ərməğan edilib.

Hər bir mahnı-oyunda göstərilən ünvan folklor yurdudur. İllər ötüb, nəsillər dəyişib, köhnələr təzələnib, ancaq bu yurdun nümunələri, folklor xəzinəsi olduğu kimi qalıb. Zaman keçdikcə unudulan belə gülümeylərimizdən çoxu bu günümüzə gəlib çatmayıb. Hazırda əgər "Gülümey"in üç variantı Naxçıvanda yaşadılırsa, bəlkə də, sonrakı tədqiqatlar bunun daha çox variantlarını aşkara çıxaracaq.

Folklorun düzgün dərki xalqı özünə tanıdırır. Folkloru tədqiq etmək, şifahi xalq ədəbiyyatı nümunələrinə dair fikir söyləmək klassik irsin, zəngin ənənənin öyrənilməsi deməkdir. Bəli, bu gün folklor nümunələrimizi öyrənməklə biz bu irsin davamçılarına çevrilirik.

**Şölə QADİRQIZI**
***Azərbaycan Respublikasının Əməkdar jurnalisti***

## Futbol birinciliyində növbəti oyunlar keçirilib

***Gənclərin idmana cəlbi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, şəhər və rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birinciliyinin növbəti oyunları keçirilib.***

Şərur rayonunda keçirilən iki görüşdə növbəti mərhələyə yüksələn komandaların adları məlum olub. Mahmudkənd stadionunda təşkil olunan oyunda yerli komanda Oğlanqala kənd komandasını 4:2, Dəmirçi kənd stadionunda isə Çərçiboğan kənd komandası Aşağı Daşarx kənd komandasını 1:0 hesabı ilə məğlub edərək növbəti mərhələyə yüksəliblər.

Kəngərli rayon Qıvraq qəsəbə stadionunda Qıvraq qəsəbə və Qarabağlar kənd komandaları üz-üzə gəlib. Görüş meydan sahiblərinin 5:1 hesablı qələbəsi ilə başa çatıb. Culfa rayonunda isə növbəti tura yüksələn komanda Əbrəqunus kənd komandası olub. Onlar Xanəgah kənd komandasının qapısından 4 top keçiriblər – 4:1. Babək rayonunda isə Nehrəm və Qahab kənd komandaları qarşılaşıb və görüş birincilərin 2:1 hesablı qələbəsi ilə başa çatıb.



Ordubad rayonunda Sabirkənd və Dırnıs kənd komandaları qarşılaşması birincinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Sədərək rayon stadionunda Qaraağac kənd komandası Sədərək-2 komandasını 4:2, Kolanı kənd stadionunda isə Kolanı kənd komandası Gömür kənd komandasını 8:6 hesabı ilə məğlubiyyətə uğradıb.

Həftənin ən bolqollu oyunu isə Naxçıvan şəhərində qeydə alınıb. Belə ki, üçüncü yer uğrunda görüşdə Qaraxanbəyli və Tumbul kənd komandaları qarşılaşıb. Daha üstün oyun sərgiləyən Qaraxanbəyli kənd komandası meydanı 17:6 hesablı qələbə ilə tərk edib.

Qeyd edək ki, növbəti oyunlar avqust ayının 12-də keçiriləcək.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Novruzov Nərman Məhərrəm oğlunun adına olan JN-1205A inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 628